**Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında 2016-cı il aprelin 26-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikasının Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 iyun 2016-cı il
№ 973

**Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti,

iki dost və qardaş ölkə arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
**Əməkdaşlıq sahələri**

Tərəflər bərabərlik, qarşılılıq prinsipinə əsaslanaraq, qarşılıqlı fayda əsasında və öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq, qarşılıqlı razılıq ilə aşağıdakı sahələrdə əməkdaşlığı inkişaf etdirəcək və gücləndirəcəklər:

a) iki ölkənin səhiyyə sistemlərinin uyğunlaşdırılması;

b) səhiyyədə keyfiyyət standartı və qiymətləndirmə sisteminin formalaşdırılması üçün keyfiyyət və akkreditasiya sahəsində təcrübə mübadiləsi;

c) qeyri-infeksion xəstəliklərlə mübarizə və ictimai səhiyyəni maraqlandıran bütün digər sahələrdə əməkdaşlıq;

e) orqan, toxuma və sümük iliyi transplantasiyası sahəsində əməkdaşlıq;

e) Azərbaycan Respublikasında və ya Türkiyə Respublikasında dərman vasitələri, tibbi cihaz və tibbi sərfiyyat materialları ilə bağlı sahələrdə birgə sərmayə imkanlarının araşdırılması, dərman vasitələrinin keyfiyyətinin beynəlxalq standartlara uyğun olması üçün birgə işlərin aparılması və vaksin istehsalı sahəsində əməkdaşlıq;

f) təcili tibbi xidmətlərin təşkili və fövqəladə hallarda səhiyyə sahəsində əməkdaşlıq;

g) hər iki ölkədə səhiyyənin inkişaf etdirilməsi ilə səhiyyə turizmi imkanlarının təşviq edilməsi və təcrübə mübadiləsi;

h) xəstəxanaların səhiyyə informasiya sistemləri ilə idarə olunması məsələlərində təcrübə mübadiləsi;

i) səhiyyə işçilərinin qısamüddətli təlimləri;

j) səhiyyə sahəsində institut və universitetlər arasında əməkdaşlıq;

k) "Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Türkiyədə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının təhsillərini bitirdikdən sonra müvafiq müqavilə öhdəliklərinə uyğun Azərbaycan Respublikasına qayıtması və xidmət göstərməsi, eyni zamanda Türkiyədə akademik və əmək fəaliyyətini davam etdirmək üçün əlavə şərtlərin müəyyən edilməsi sahəsində əməkdaşlıq.

Maddə 2

**Əməkdaşlıq formaları**

Tərəflər qarşılıqlı razılıq əsasında müəyyən olunan səhiyyə və tibb elmi sahəsində aşağıdakı formalarda əməkdaşlıq edəcəklər:

a) informasiya və təcrübə mübadiləsi;

b) heyət, mütəxəssis həkim və tibb işçilərinin mübadiləsi;

c) tibb işçilərinin qısamüddətli təlimlərlə bacarıqlarının artırılmasının təmin edilməsi;

d) birgə əməkdaşlıq layihələrinin işlənib hazırlanması;

e) müvafiq səhiyyə qurumları arasında əməkdaşlığın təmini;

f) Tərəflərdən birinin təşkil edəcəyi konfrans, iclas, simpozium və s. elmi tədbirlərdə mütəxəssislərin iştirakının təşviqi ilə tədbirlərin keçiriləcəyi ölkələrdə zəruri dəstəyin göstərilməsi.

Maddə 3

**Birgə işçi qrup**

Tərəflər aralarındakı əməkdaşlıq fəaliyyətinin təfərrüatlarını müəyyən etmək və qiymətləndirmək üçün birgə işçi qrup yaradacaqlar.

Birgə işçi qrup bu Sazişin yerinə yetirilməsi üçün fəaliyyət planları və icra proqramları hazırlaya biləcəkdir.

Bu qrup mütəmadi olaraq ən azı ildə bir dəfə görüşəcək, Tərəflərin müəyyən etdiyi qaydalara uyğun olaraq konkret əməkdaşlıq fəaliyyətlərini və proqramlarını nəzərdən keçirəcək və onların həyata keçirilməsinə nəzarət edəcəkdir.

Maddə 4

**Xəstələrin müalicəsi**

Tərəflər hər il 20 (iyirmi) xəstəni ödənişsiz olaraq diaqnostika və müalicə etməyi üzərlərinə götürürlər. Bu xəstələrin seçilməsi göndərən ölkənin Səhiyyə Nazirliyi tərəfindən aparılacaq və qəbul edən ölkənin Səhiyyə Nazirliyinin təsdiqi ilə həyata keçiriləcəkdir.

Maddə 5

**İcraçı qurumlar**

Bu Sazişin həyata keçirilməsini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Türkiyə Respublikasının Səhiyyə Nazirliyi təmin edəcəkdir.

Tərəflər səlahiyyətli qurumlarında baş verən hər hansı dəyişiklik barədə bir-birlərini diplomatik kanallar vasitəsilə dərhal məlumatlandıracaqlar.

Maddə 6

**Maliyyə məsələləri**

Bu Sazişlə nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi Tərəflərin hər il bu məqsədlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitləri çərçivəsində həyata keçirilir.

Bu Saziş çərçivəsində hər iki ölkənin mütəxəssis və digər heyətlərinin səfərləri zamanı:

göndərən Tərəf ev sahibi Tərəfin gediş-gəliş xərclərini ödəyəcəkdir;

ev sahibi Tərəf qonağın iaşə və təsərrüfat, ölkədaxili nəqliyyat xərclərini (lazım olduğu təqdirdə) təmin edəcəkdir;

ev sahibi Tərəf təcili hallarda qonağın və digər heyətin tibbi müalicəsini (stomatoloji xidmət istisna olmaqla) təmin edəcəkdir.

Bu müddət iki həftədən çox olmayacaqdır.

Maddə 7

**Fikir ayrılıqlarının həlli**

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı yarana biləcək bütün fikir ayrılıqları Tərəflər arasında dostcasına danışıqlar və məsləhətləşmələr yolu ilə diplomatik kanallarla həll ediləcəkdir.

Maddə 8

**Əlavə və dəyişikliklər**

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və Sazişin 9-cu maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 9

**Qüvvəyəminmə və müddət**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş 5 (beş) illik müddətə bağlanılır. Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsindən 6 (altı) ay öncə onun ləğv edilməsini diplomatik kanallar vasitəsilə bildirmədiyi təqdirdə, bu Sazişin müddəti avtomatik olaraq 1 (bir) illik müddətlərə uzadılacaqdır.

Bu Sazişin başa çatması başlanmış və ya davam edən fəaliyyətlərə və layihələrə təsir etmir.

Tərəflər bu Sazişin qüvvəyə mindiyi tarixdən etibarən 9 fevral 1994-cü il tarixində Ankarada imzalanmış Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Səhiyyə və tibb elmi sahəsində əməkdaşlığa dair Protokolun qüvvədəolma müddətinin başa çatması barədə razılığa gəldilər.

Bu Saziş Bakı şəhərində 26 aprel 2016-cı il tarixində, Azərbaycan və türk dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının** | **Türkiyə Respublikasının** |
| **Hökuməti adından** | **Hökuməti adından** |
| **səhiyyə naziri** | **səhiyyə naziri** |
| **Prof. Oqtay ŞİRƏLİYEV** | **Dr. Mehmet MÜEZZİNOĞLU** |